*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 270-277*

# *ƏDƏBİYYATŞÜNASLIQ*

https://doi.org/10.62837/2024.10.270

**AQŞIN DADAŞ-ZADƏ**
***filologiya üzrə fəlsəfə doktoru***
**AMEA Ədəbiyyat İnstitutu**
**Hüseyn Cavid prospekti, 115**
**agshin1960@rambler.ru**

## CƏFƏR CABBARLININ DRAM YARADICILIĞINDA İNSAN VƏ TALE PROBLEMİNİN MÜRƏKKƏBLİYİ

**Xülasə**

Güclü psixologizmi ilə seçilən C.Cabbarlı yaradıcılığı, o cümlədən dramaturgiyası çox mürəkkəb və ziddiyyətli bir varlıq olan insanın şüuru və qəlbində cərəyan edən müsbət və mənfi çalarlı proseslərin özəl cizgilərinin aşkar edilməsinə hər zaman xüsusi əhəmiyyət vermişdir. Ədib ayrı-ayrı fərdlərin davranışını diktə edən motivlərin aydınlaşdırılmasında şəxsi müşahidələrinə və təhlil qabiliyyətinə əsaslanaraq, psixoloji cəhətdən dəqiq, ölçülüb-biçilmiş bədii vasitələrdən istifadə etməyə çalışmışdır. Bu zaman onun dramlarının süjet xətti bəzən kəskin təzadlarla müşayiət olunmuş, qeyri-standart inkişaf trayektoriyasında inkişaf etmişdir. Dahi dramaturq şüurlu surətdə qeyri-adi taleyə malik personajların obrazını yaratmış, onların həyat və fəaliyyətinin timsalında bəşəriyyətin durumunun ən ağır, məşəqqətli tərəflərini əks etdirmişdir. O, öz simasında dərin fəlsəfi zəkanı və iti müşahidə qabiliyyətini birləşdirərək, hər zaman qəhrəmanlarının davranışını əsaslandıran real səbəbləri açmağa cəhd etmişdir. Təqdim edilən məqalədə Cabbarlının ilk dram əsərləri əsasında onların qəhrəmanlarının taleyinin spesifik xüsusiyyətlərinin vurğulanmasına, bu qəhrəmanların həyatı ilə bağlı qanunauyğun və ziddiyyətli proseslərin mahiyyətinin təhlilinə təşəbbüs göstərilir.

**Açar sözlər**: insan, tale, dram, psixologizm, konflikt

Bəşəriyyətin uzun əsrlər davam edən mədəni inkişaf və təkamülünün yaşadığımız dövrdə sanki bir dalana dirənməsi, dünya çapında cərəyan edən proseslərin üzücü reallığı və yaxın zamanlar üçün hər hansı bir nikbin perspektivdən məhrum olması, ümumdünya xarakteri almış mənəvi-əxlaqi aşınma və bunun təbii nəticəsi kimi insan toplumunun geri sayım fazasına daxil olması həyatın bütün sahələrində, o cümlədən ədəbiyyat və incəsənətdə özünü əks etdirməkdədir. Belə bir gerçəklik müstəvisində arxaya dönüb baxmaq, vaxtilə klassik Azərbaycan yazıçılarının ərsəyə gətirdikləri əsərləri xatirələrdə canlandırmaq, onların mövzusuna, problematikasına bu günün düşüncəsi ilə bir daha nüfuz etmək,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.270-277*

qəhrəmanların mənəvi-psixoloji aləmini təhlilə çəkmək zərurəti təbii görünür. Bu, onunla izah edilir ki, müasirimiz olan insanların əqidəsi, ideoloji "istinadgah"ları (əgər burada həqiqi ideologiyadan bir əlamət varsa! – A.D.), davranış vərdişləri keçmiş dövrlər, yüzilliklərlə müqayisədə öz əsas prinsiplərinə görə çox da dəyişməmiş, sadəcə olaraq daha deformasiyalı bir hala gəlmişdir. Elə isə, bədii əsərlərin nümunəsində insan psixologiyasının dərinliklərinə, onun mənəvi aləmində dövr edən əzəli proseslərə daha yaxından nəzər salmaq üçün retrospektiv dönüş etmək, yəni ədəbiyyat tarixində özünəməxsus iz qoymuş əsərlərə üz tutmaq gərəkdir. Belə ki, həmin əsərlərin süjet xəttini təşkil edən hadisələrin mahiyyətinin özünəməxsus mürəkkəbliyi, qəhrəmanlarının timsalında isə canlı şəxs və onun taleyi anlayışlarının birmənalı yozumdan uzaq olması haqqında düşünmək, fikir yürütmək mümkündür. Bu, bir də ona görə lazımdır ki, müasir dramaturgiya üslubi və texniki innovasiyalar baxımından nə qədər irəli getmiş olsa da, məndəricə, fəlsəfi mahiyyət, müəllif peşəkarlığı və dramaturji vəzn nöqteyi-nəzərindən elə bir müvəffəqiyyət qazana bilməmişdir. Həmin səbəbdən araşdırılan mövzu çərçivəsində, heç şübhəsiz ki, C.Cabbarlı kimi fenomenal istedad və özünü orijinal tərzdə ifadə etmək qabiliyyətinə malik bir sənətkarın yaradıcılığı, konkret olaraq isə zəngin məzmunlu və məfkurəvi-estetik mahiyyətli dramları barədə söz açmaq məqsədəuyğun görünür.

İnsanın həyatda yeri, onun özünü dərk etməsi üçün çabaları, ehtiraslarının mahiyyəti, psixoloji xarakteristikasının ziddiyyətləri məsələsi hələ çox gənc olan Cabbarlının ilk pyeslərindən biri – "Solğun çiçəklər"də kifayət qədər aydın şəkildə üzə çıxmışdır. Bu əsərdə Bəhram adlı gəncin yaşadığı mühitdə baş verən ziddiyyətli proseslərin və həmin proseslər nəticəsində yaranan situasiyaların təsiri ilə bir insan kimi tədricən deqradasiyaya uğraması təsvir edilmişdir. Əsərin əvvəlində insana xas olan müsbət keyfiyyətlərin az-çox daşıyıcısı kimi diqqəti cəlb edən, lakin bu xarakteristikasını qoruyub saxlamağa müvəffəq olmayan Bəhramın mənəvi naqisliyi, əqidə zəifliyi və iradə keyfiyyətlərinin yararsızlığı pyesin süjet xətti razvyazkaya (düyünün açılması) doğru irəlilədikcə, dramaturqun mahir qələmi ilə konkret formada açılıb göstərilir. Əslində, Bəhram surətində irland yazıçısı və dramaturqu Oskar Uayldın "Dorian Qreyin portreti" romanının qəhrəmanının səciyyəsi ilə uzlaşan bəzi cizgilər vardır. Əgər bu qəhrəmanların hər ikisi əvvəlcə oxucu, yaxud tamaşaçıda hüsn-rəğbət hissinin qığılcımlarını oyatmaq iqtidarındadırsa, sonrakı hadisələr bunun tam əksi ilə nəticələnir. Belə ki, onların əqidəsi və iradə keyfiyyətləri qarşılarına çıxan saysız-hesabsız maneələr, ələlxüsus şirnikləndirici situasiyalar fonunda praktiki olaraq iflasa uğradığından, bu qəhrəmanların aqibəti qaçılmaz faciə müstəvisinə yuvarlanır. Burada qeyd etmək gərəkdir ki, "Solğun çiçəklər"də uzaqdan-uzağa olsa da, Əbdürrəhim bəy Haqverdiyevin "Pəri Cadu" dramında izlədiyimiz hadisələrlə bir səsləşmə də hiss olunmaqdadır. Məsələn, "Pəri Cadu"dan tanıdığımız Qurban surətində də Bəhrama məxsus xarakter cizgiləri vardır. Onları prinsipial olaraq fərqləndirən bir cəhət varsa, o da ondan ibarətdir ki, Qurban

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 270-277*

cəmiyyətin aşağı təbəqəsinə mənsub kasıb bir insandır. Lakin asan yolla varlanmaq, həyatın mümkün nemətlərindən bəhrələnmək arzusu və bu yolda mənəvi prinsipsizliyə, hətta xəyanətə belə yol verilməsinin mümkünlüyünü qəbul etmək adı çəkilən hər iki personajın tipik cəhəti hesab edilə bilər. Onların varlığının təbii müşayiətçisi olan nəfs və onun törətdiyi fəsadlar isə həm Bəhramın, həm də Qurbanın, obrazlı şəkildə desək, tabutuna vurulan sonuncu mismardır. Halbuki həyata daha ayıq baxış və müəyyən çərçivə daxilində asketizmə söykənmək cəhdi, yaxud Z.Freydin təbirincə, fərdi "psixoloji müdafiənin adaptiv mexanizmi"nin bu qəhrəmanlar tərəfindən vaxtlı-vaxtında hərəkətə gətirilməsi onları faciəvi finaldan mühafizə edə bilərdi.

Haqqında bəhs etdiyimiz əsərin dramaturji və estetik keyfiyyətlərinə gəldikdə isə qeyd olunmalıdır ki, mütəxəssislər tərəfindən onların bir sıra şübhəsiz məziyyəti sadalansa da, göstərilirdi ki, burada "... bədii təsvirlər hələ ümumiyyətlə məişət dairəsindən kənara çıxmır, dövrün ictimai-siyasi tələbləri səviyyəsinə qalxa bilmirdi. Bədii surətlərdə isə sxematizm qüvvətli idi. Ədib öz qəhrəmanlarının psixoloji aləmlərini çox çılpaq şəkildə təsvir edir, adamları hələ də qara və ağ boyalarla, mənfi və müsbət əlamətlərlə bir-birindən ayırırdı"(1, 41). Pyesin bu xüsusiyyətlərinin də dilə gətirilməsi, şübhəsiz ki, əsərdə dram sənətinin klassik qanunlarına daha səliqə ilə riayət edilməsi istəyindən və Cabbarlı yaradıcılığının unikal imkanlarına inamdan doğurdu. Bununla yanaşı, ədəbiyyatda ilk addımlarını atan Cabbarlının yaşının azlığına və dünyagörüşünün tam formalaşmamasına baxmayaraq, bəşəriyyətin natamamlıq kompleksini, insan psixologiyasının qüsurlu cəhətlərini və bu islahedilməz amillərin (kəskinlik dərəcəsindən asılı olaraq – A.D.) konkret bir fərdi, yaxud bütöv bir toplumu gec-tez fəlakətə sürükləyəcəyi ehtimalını instinktiv tərzdə duyması, buna bir yaradıcı şəxs kimi ürəkdən acıması və düşüncələrini, keçirdiyi hissləri əksər hallarda çox təsirli, emosional boyalarla əks etdirməsi sənətkarın böyük potensialından xəbər verirdi. Bu zaman dramatik effektin gücləndirilməsi məqsədilə istifadə olunan sentimental səciyyəli replikalar, monoloqların tamaşaçının hisslər aləmini riqqətə getirməyə hesablanmış patetikası da pyeslərin ümumi ruhu və qayəsinə, ümumən, zərər yetirmir, bəlkə də əksinə, müəllif ideyasının daha yaxşı qavranılmasına xidmət edirdi, - əlbəttə, bəzi halları istisna etmək şərti ilə.

Dərindən düşünən bir fərd və sənətkar kimi cəmiyyətin quruluşu, bu quruluşu idarə edənlər tərəfindən "icad olunmuş", formalaşdırılmış qanunların, ictimai münasibətlərin natamamlığı, onların sadə insanların həyatına və taleyinə bir çox hallarda mənfi təsiri Cabbarlını hər zaman narahat etmişdir. Odur ki, onun "Solğun çiçəklər"dən sonra tarixi mövzuya müraciət edərək, "Nəsrəddin şah" pyesini yazması və siyasi-ictimai xarakterli bir sıra məsələyə münasibət bildirməsi təsadüf hesab olunmamalıdır. Əlbəttə, gənc müəllifin həm ideya-məfkurəvi, həm də sırf dramaturji baxımdan xeyli mürəkkəb xarakterli bir mövzunu seçməsi onun öz yaradıcılıq imkanlarına güvənməsi ilə əlaqədar idi. Bu əsərin qəhrəmanları qarşısında duran

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.270-277*

problemlər "Vəfalı Səriyyə" və "Solğun çiçəklər"in personajlarını narahat edən məsələlərdən kəskin surətdə fərqlənir, məişət səviyyəsindən kənara çıxıraq, ali ideyaları əhatə edirdi. Məlumdur ki, pyesin baş qəhrəmanı kimi seçilmiş Mirzə Rza (Kirmani) tarixi şəxsiyyətdir və o, XIX əsrdə yaşamış görkəmli mütəfəkkir və islami modernizmin banilərindən biri Cəmaləddin Əfqaninin yaxın tərəfdarlarından olmuşdur. Əsərin dramatik xəttini gücləndirmək məqsədi güdən müəllif burada Mirzə Rza və onun ailə üzvlərini sözün müstəqim mənasında dəfedilməz bir ölüm-dirim dilemması qarşısında qoymuşdur. Yaşadığı ölkənin despotik hakimiyyət məngənəsi, ən adi insan haqlarının hər addımda kobudcasına pozulması əsərin baş qəhrəmanı və onun ailəsini böyük bir faciəyə sürükləyir. Bu ölkədə insan həyatının zərrə qədər əhəmiyyəti yoxdur və məhz həmin səbəbdən Mirzə Rza ən yaxın adamlarını fiziki cəhətdən itirmiş olur. Təbii ki, qəhrəmanın faciəsinin ilk və başlıca səbəbini məhz onun yaşadığı məmləkətdə naqis dövlət-insan münasibətlərində axtarmaq məntiqi cəhətdən əsaslanır. Bu məqamda həm də insan taleyinin mühit, şərait və kənar amillərdən asılılığı, daha dəqiq desək, qəzavü qədər məsələsi ön plana keçir. Düşüncəsi, mənəviyyatı və istəklərində pozitiv elementlərin daşıyıcısı olan qəhrəman (söhbət dramaturqun obrazını yaratdığı Mirzə Rzadan gedir – A.D.) həyatda artıq hər şeyini itirdikdən sonra şəxsi intiqam və terror metoduna əl atır ki, bu da onun düşüdüyü vəziyyət və psixoloji durumu ilə tam uzlaşır, həm də onun xarizmatik təbiətini nümayiş etdirir. Geniş mənada cəmiyyətdə nəyin isə yaxşılığa doğru dəyişməsinə inamını itirən Mirzə Rza vicdansız despot Nadir şahı qətlə yetirməklə öz missiyasını yerinə yetirmiş olur. Çünki mövcud olduğu gerçəklik çərçivəsində onun bundan artıq qəhrəmanlıq etməsinə, pozitiv passionarlığını ortaya qoymasına imkan görünmür. Bu baxımdan əsərin qəhrəmanının həmin hərəkəti 1881-ci ildə Rusiyada "Narodnaya volya" qeyri-leqal inqilabi-siyasi partiya üzvlərinin çar II Aleksandrı fiziki cəhətdən aradan götürməsi hadisəsini xatırladır. Hər iki halda fərdi terror aktı onu əvvəlcədən düşünüb hazırlayan və icra edən şəxslərin taktiki məqsədlərinin yerinə yetirilməsini təmin etsə də, strateji cəhətdən, demək olar ki, səmərəli olmamışdır. Bu zaman qeyd edilməlidir ki, Mirzə Rzanın hökmdarı öldürməsi (tarixdən bəllidir ki, Nəsrəddin şah Qacarın Mirzə Rza Kirmani adlı şəxs tərəfindən qətlə yetirilməsi bir həqiqətdir – A.D.) Cabbarlının təxəyyülü və qələminin gücü ilə bədii-dramaturji cəhətdən yeni rənglər əldə etmişdir. Məhz bu amil pyesin dinamikasına təkan verir, onu həm ideoloji, həm də emosional cəhətdən daha yüksək mərtəbəyə qaldırır. Həmin mühüm yaradıcılıq məqamı ilə əlaqədar amerikli dramaturq və teatr tənqidçisi Erik Bentlinin aşağıdakı mülahizəsinə üz tutmaq ehtiyacı yaranır: "Hər hansı bir hadisədə dramatizmin müşahidə edilməsi, ilk növbədə konfliktin elementlərini qavramaq, daha sonra isə həmin konflikt elementlərinə emosional tərzdə reaksiya vermək mənasını daşıyır. Emosional reaksiya o deməkdir ki, konkret olaraq hər hansı bir konflikt sizi həyəcanlandırır, heyrətə qərq edir, silkələyir" (4, 31). "Nəsrəddin şah"da konfliktin məhz bu növünü

görürük ki, o da əsərin qəhrəmanlarının acı taleyini bütün çılpaqlığı ilə ortaya qoyur. Maraqlıdır ki, gənc Cabbarlı mövzu üzərində işləyərkən əslində qədim bir tarixə malik dövlətin (söhbət hazırda İran kimi tanınan bir dövlət haqqında gedir – A.D.) konkret bir dövrdə daxili strukturunu bürümüş dərin böhranı az qala fiziki səviyyədə hiss etmiş və əsərin baş qəhrəmanının ideoloji görüşlərindən, həyatın mənasına baxış və yanaşmasından doğan faciəvi həyat yolunu və sonluğunu, nə qədər qəribə səslənsə də, həm də onun genetik kodu (əvvəlcədən proqramlaşma) ilə əlaqələndirmişdir. Pyesdə bunun zahiri əlamətlərinin çox da nəzərə çarpmamasına baxmayaraq, əsərin ümumi məzmunu, fəlsəfi mahiyyəti, habelə hadisələrin gedişi belə düşünməyə imkan verir.

Cabbarlı çox qısa bir müddət ərzində yaradıcılıq diapazonu baxımından böyük bir inkişaf yolu keçməkdə idi. Bu yolda onun insanın, hər hansı bir fərdin taleyi ilə əlaqədar düşüncələri daha da təkmilləşirdi. Qeyd edilməlidir ki, "Ədirnə fəthi" və "Trablis müharibəsi və ya Ulduz" pyesləri, habelə əlyazması, gərək ki, indiyədək tapılmayan "Bakı müharibəsi" (bəzi mənbələrə görə "Bakı faciəsi" – A.D.) əsəri onun bədii irsində xüsusi mərhələ təşkil edir. Bu bədii nümunələrdə əks olunan tarixi hadisələr Azərbaycanda 1920-ci il aprel inqilabından, əslində isə çevrilişindən əvvəlki dövrü əhatə edir və məmləkətimizin sərhədlərini aşaraq bütün Şərq aləmində taleyüklü səciyyə daşıyan məqamlara toxunur. Tarixi retrospeksiya onu göstərir ki, həm Cabbarlı, həm də yaşca ondan böyük və qat-qat daha təcrübəli qələm sahibləri iyirminci il aprel olaylarından sonra yaranmış siyasi şəraitdə artıq adları yuxarıda sadalanan əsərlərdəki mövzulara sərbəst və obyektiv şəkildə müraciət edilməsi imkanını itirmişdilər. Həmin səbəbə görə bu pyeslərin problematikası və onun mərkəzində duran ayrı-ayrı fərdlərin ideoloji baxışları, həyat yolu, mübarizəsi, daha geniş mənada isə taleyi öz spesifikası ilə diqqəti xüsusilə cəlb edir. "Ədirnə fəthi" və "Ulduz" pyeslərinin özəl cəhəti bir də onunla şərtlənir ki, hər iki əsərdə təsvir olunan olduqca dramatik hadisələr Osmanlı imperiyasının süqutu ərəfəsində baş verməkdədir. Burada söhbət yalnız yüz illər boyu mövcud olmuş nəhəng bir imperiyanın deyil, həm də bütöv bir xalqın, hətta çox böyük bir coğrafi regionda yaşayan insanların gələcək taleyindən gedir. Ona görə də tamamilə təbiidir ki, hər iki pyesin qəhrəmanları özlərindən asılı olmayaraq tarixin amansız dönüş nöqtəsində qərarlaşmışlar. Onlar ekstremal şəraitdə fəaliyyət göstərməyə, daim stress vəziyyətində olmağa məhkumdur. Cabbarlı, yaratdığı surətlərin fərdi keyfiyyətlərini, vətən təəssübkeşliyini, bununla əlaqədar əməli ilşlərini, bir sıra hallarda isə əsl fədakarlığını təsvir etmişdir. Obyektiv olaraq bu qəhrəmanlar dövlətin gələcək konturlarını cızan və yaranacaq yeni siyasi-coğrafi palitranın təməlini qoyan keşməkeşli hadisələrin bilavasitə iştirakçısıdır. Cabbarlının şiddətli emosional ovqat yaradan qələminin gücü bu pyeslərdə açıq, bəzən də dolaşıq xətt üzrə inkişaf edən məhəbbət motivlərini nə qədər güclü və təsirli tərzdə əks etdirsə də, əslində lirik hisslərin daşıyıcısı olan personajlar şəxsi emosional sferadan gələn impulslardan da

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.270-277*

Vətənin istiqlalı uğrunda mücadilə əzminə əlavə bir stimul verən qüvvə kimi bəhrələnirlər. Eyni zamanda dramaturqun qəhrəmanları tarixi gedişatın faciəvi addımlarını hiss edir, onların mahiyyətini hələ tam şəkildə anlaya, dərin təhlil apara bilmir, səbəb-nəticə əlaqəsinin məntiqinə çox da varmırlar. Doğrusu, onların bunun üçün heç vaxtı da yoxdur, çünki pusquda duran quduzlaşmış düşmənlər bu qəhrəmanların Vətənini didib-parçalamaq üçün münasib bir tarixi imkan əldə etmişlər və bu imkanı əldən vermək istəmirlər. Odur ki, əslində "Ədirnə fəthi" və "Ulduz"un qəhrəmanları—məsələyə daha ali müstəvidən yanaşılarsa—"şəxsi tale" deyilən bir qismətdən də məhrumdur. Onların bütün fikirləri əsasən doğma yurdun hüdudlarının, onun insanlarının fiziki və mənəvi cəhətdən qorunmasına, düşmənlərə layiq olduqları cavabın verilməsinə yönəlmişdir və bu amil həmin vətənpərvər şəxslərin uzaq keçmişdən gələn genetik xüsusiyyətləri ilə bağlıdır. Bir sözlə, Cabbarlının adı göstərilən pyeslərinin qəhrəmanlarının şəxsi taleyi, elə bil ki, onlar dünyaya gələn andan doğma el-obanın təəssübü ideyası ilə birləşmiş və öz mahiyyətini həmin ideyanın müqəddəsliyinə tabe etmişdir. Əsərlərin yüksək ideoloji pafosunun mənbəyini məhz bu nöqtədə axtarmaq gərəkdir.

"Ədirnə fəthi" və "Ulduz"da bir cəhət də diqqəti cəlb edir. Burada söhbət müəllifin fantaziyasının məhsulu olan, yaxud yarıreal personajlarla yanaşı, tarixdə həqiqətən yer almış şəxslərin iştirakından gedir. Heç də təsadüfi deyil ki, hər iki əsərin yaddaqalan personajlarından biri Azərbaycan xalqının taleyində müstəsna rolu olan əfsanəvi Ənvər paşadır. Tədqiatların birində bu sətirləri oxuyuruq: "Gənc C.Cabbarlı Ənvər paşa obrazını idealizə edərək ön plana çəkmiş, onun "hünər və qəhrəmanlığını", "vətənpərvərlik və fədakarlığını" (bu sətirlər sovet quruluşunun ideoloji basqılarının hələ güclü olduğu ötən əsrin 70-ci illərində yazıldığından, onların müəllifi fikrini bir qədər örtülü formada vermək məcburiyyətində olmuşdur.– A.D.) rəğbətlə təsvir etmiş, onu çürümüş osmanlı imperatorluğunun simvolu olan izzət paşalara, nazim paşalara qarşı qoymuşdur" (2, 84). Cəsarətlə söyləmək olar ki, dramaturq "İttihad və tərəqqi" partiyasının liderlərindən biri – Ənvər paşanın obrazını yaradarkən tarixi reallığa əsaslanmış, qarşısında duran istənilən səddi tərəddüd etmədən yarmağa hazır olan cəsur, cüzi dərəcədə belə kompromis tanımayan bir tarixi şəxsiyyətin maraqlı bədii obrazını canlandırmağa müvəffəq olmuşdur. Bu obrazın daha inandırıcı təsir oyatmasından ötrü müəllif onun xarakterinə məxsus müəyyən çatışmazlıqlara da işarə vurmuş və bununla göstərmək istəmişdir ki, dövlət və xalq qarşısında tarixi missiya icra edən fərdlərin taleyi bir çox hallarda mürəkkəb, ziddiyyətli səciyyə daşıyır və həmin səbəbdən onların həyatı da faciəvi məqamlarla müşayiət olunur. Ənvər paşanın xarakteri, həyat kredosunu icra etmək yolunda coşqun fəaliyyəti onun faciəvi, lakin qəhrəmanlıqla əlamətdar olan sonluğunu yaxınlaşdırmışdır ki, Cabbarlı həssas qəlbi və düşüncəsi ilə bunu əvvəlcədən, sanki hiss etmiş və həmin hisslərdən doğan ab-havanın müəyyən elementlərini haqqında bəhs etdiyimiz əsərlərdə yarada bilmişdir.

Teatrşünas A.Anikst dram qəhrəmanının spesifikasından bəhs edərkən belə bir fikir irəli sürmüşdür: "Əsərin qəhrəmanının ehtirası onun şəxsiyyətinin daxili tələbəatını təşkil edir… Məhz bu amil incəsənətdə nəsihətçilik ruhunu aradan götürür. O, sanki həqiqi bir faktı tədqiq edir, səbəb-nəticə əlaqəsinə aydınlıq gətirir" (3, 164). C.Cabbarlının çox qısa, lakin olduqca məhsuldar və çoxşaxəli bir ömrü, fəaliyyəti ərzində yaratdığı qəhrəmanların əksəriyyəti mürəkkəb bir struktur olan insanın ehtiras və emosiyalarının zəngin bir palitrasının müxtəlif rənglərini canlı, dinamik bir şəkildə ehtiva etməklə, dram sənətinin xarakter qarşısında qoyduğu əsas prinsiplərə uyğun gəlir. Bu xüsusiyyət dramaturqun elə ilk pyeslərindən özünü göstərmiş və əsərdən-əsərə bədii-estetik cəhətdən daha kamil forma alaraq, sabit bir tendensiyaya çevrilmişdir. Ədibin insanla cəmiyyət arasında mürəkkəb əlaqənin özəl xüsusiyyətlərinə yanaşma tərzi, fərdin (qəhrəmanın) psixoloji aləminə nüfuz etmək və həmin aləmin çalarlarını müvafiq ifadə üsulları ilə əks etdirmək qüdrəti onun qələmə aldığı personajların taleyini daha yaxından izləmək və həmin personajların birmənalı yozumdan uzaq olan daxili dünyalarının cizgilərini qavramağa çalışmaq baxımından həmişə cazibəli görünmüşdür. Əlbəttə, Cabbarlı dramaturgiyasının ilk nümunələri kompozisiya quruluşu etibarilə bir qədər sadə təsir bağışlayır, lakin onların alt qatında gizlənən enerji və ehtiras tükənməzdir. Həmin səbəbə görə insan taleyinin mürəkkəb, çox vaxt dolaşıq düyünlərinin məhz həmin bədii nümunələrin qəhrəmanlarının ("Solğun çiçəklər", "Nəsrəddin şah", "Ədirnə fəthi", "Trablis müharibəsi və ya Ulduz") timsalında təhlilə cəlb edilməsi ideyası bizə maraqlı göründü və bu məqalə çərçivəsində problemin bədii həllinin bəzi özəl aspektlərinin işıqlandırılmasına təşəbbüs göstərdik.

## Ədəbiyyat

1.Məmməd Arif. Seçilmiş əsərləri (üç cilddə). 2-ci cild. B., Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1968

2.Rahib Hüseynov. Cəfər Cabbarlının tarixi dramlarının səhnə təcəssümü. B., "Maarif", 1971

3.Аникст А. Теория драмы в России от Пушкина до Чехова. М., Издательство «Наука», 1972

4.Бентли Э. Жизнь драмы. М., Издательство «Искусство», 1978

**АГШИН ДАДАШ-ЗАДЕ**

## СПЕЦИФИКА ПРОБЛЕМЫ «ЧЕЛОВЕК И СУДЬБА» В ДРАМАТУРГИИ ДЖАФАРА ДЖАББАРЛЫ

### Резюме

Дж.Джаббарлы является гениальным драматургом, чьи произведения отличаются особым построением сюжетной линии, необычайно динамичным, ярким, подчас неожиданным и контрастным чередованием событий,

участниками которых становятся герои, обладающие неповторимостью характеров и судеб. Классик национальной литературы, наделенный широтой философского видения, с чуткостью относился к раскрытию внутреннего мира изображаемых персонажей, уделяя особое внимание психологической мотивации их действий. В данной статье на примере ранних драм художника предпринимается попытка анализа особенностей личных судеб героев, закономерностей событий и перепетий их жизненного пути.

**Ключевые слова**: человек, судьба, драма, психологизм, конфликт

**AGSHIN DADASH-ZADA**

**SPECIFITY OF THE PROBLEM "MAN AND FATE" IN THE DRAMATURGY OF JAFAR JABBARLY**

**Summary**

J.Jabbarly is a brilliant plarwright, whose works are distinguished by a special construction of the plot line, in unusually dynamic, bright, sometimes unexpected and contrasting alternation of events, in which the participants are heroes with unique characters and destinies. The classic of national literature, endowed with a breadth of philosophical vision, was sensitive to the disclosure of the inner world of the depicted characters, paying special attention to the psychological motivation of their actions. In this article, using the example of the artist's early dramas, an attempt is made to analyze the features of the personal destinies of the heroes, the patterns of events and the twists and turns of their life path.

**Key words**: man, destiny, drama, psychological analysis, conflict

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: filologiya elmləri doktoru Cavanşir Yusifli**
**tərəfindən çapa tövsiyə olunmuşdur.**